

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 37 (21.698)

22 fevral 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Prezident İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilib.

Fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edib.

İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildiriblər və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzulayıblar.

* * *

Fevralın 21-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti xanım Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ilə bağlı təbriklərini çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.



*22 fevral avtomobil yol işçilərinin peşə bayramı günüdür*

## Naxçıvanda müasir yol infrastrukturu yaradılıb

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 20 fevral tarixli Sərəncamı ilə hər il fevralın 22-si ölkəmizdə avtomobil yol işçilərinin peşə bayramı günü kimi qeyd olunur.*

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə avtomobil yollarının bərpası və yenidən qurulması, yeni yol şəbəkələrinin çəkilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Dahi rəhbərin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də bu sahənin inkişafını prioritet istiqamət kimi müəyyənləşdirmişdir. Son illər ölkəmizdə müasir avtomobil yolları çəkilmiş, dövlət başçısının imzaladığı sərəncamlara, qəbul olunan dövlət proqramlarına uyğun olaraq yol-nəqliyyat infrastrukturunun yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür.



Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı quruculuq işləri zamanı yol tikintisinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınmış, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilmiş, yeni körpülər tikilmişdir. Muxtar respublikada müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilmiş, yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalına nail olunmuşdur. Son illər Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan yol istismar idarələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikada yol tikintisinin səmərəli təşkilinə şərait yaratmış, müasir mühəndis-texniki tələblərə cavab verən avtomobil yolları inşa olunmuşdur.

Son illər muxtar respublikanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin daha da genişləndirilməsində, beynəlxalq yük və sərnişin daşımalarında əhəmiyyətli rol oynayan magistral yollar yenidən qurulmuşdur. Belə ki, 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları yenidən qurularaq istifadəyə verilmişdir. Ötən müddət ərzində ölkə başçısının müvafiq sərəncamlarına uyğun olaraq Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, Çeşməbasar-Boyəhməd, Hacıvar-Vayxır-Sirab və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istismara verilmişdir. Kəndlərin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinin, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanda yol tikintisi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvan şəhərini digər şəhərlərlə birləşdirən gözəl və çox keyfiyyətli yollar salınıb... Naxçıvan-Culfa, Naxçıvan-Şahbuz, Naxçıvan-Sədərək yolları ən yüksək standartlara cavab verir... Kənd yollarının tikintisi də uğurla gedir və bu proses davam edəcək”.***

Muxtar respublikada qış aylarında yolların qar və buzdan təmizlənməsi üçün istifadə olunan texnikaların saz vəziyyətə gətirilməsi, ehtiyat hissələri ilə təminat magistral və ucqar kəndlərə hərəkətin fasiləsizliyini təmin etmişdir. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, muxtar respublikada mövcud olan 274 kilometr dövlət əhəmiyyətli və 1199 kilometr yerli əhəmiyyətli avtomobil yollarında qarlı-çovğunlu günlərdə belə hərəkətin intensivliyi tam təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Yol tikintisi Azərbaycan dövlətinin iqtisadi qüdrətinin və vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür”.*** Bu sahədə reallaşdırılan layihələrin əsas hədəfi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir. Bütün bu işlərdə isə avtomobil yol işçilərinin üzərinə mühüm vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin kollektivi mövcud imkanlardan səmərəli istifadə edərək bundan sonra da muxtar respublikanın yol-nəqliyyat infrastrukturunun inkişafına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin mətbuat xidməti***

## Fənn olimpiadasının qalibləri mükafatlandırılıb

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində fənn olimpiadaları qaliblərinin mükafatlandırılması ilə bağlı tədbir keçirilib.***



Tədbirdə çıxış edən təhsil naziri Məmməd Qəribov bildirib ki, hər bir xalqın milli intibahını təmin edən ən zəruri vasitə təhsildir. Ona görə də ölkəmizin bütün regionlarında, həmçinin Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet istiqamət təşkil edir. İlbəil təhsil müəssisələri üçün yeni binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması, ümumtəhsil məktəblərinin ən müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə müsbət təsirini göstərib. Hər il olduğu kimi, bu il də muxtar respublikamızda məktəb binalarının tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi təhsildə uğurlarla nəticələnir. Belə ki, 2016-cı ildə Naxçıvan Dövlət Texniki Kolleci, Ordubad Texniki Peşə və Sürücülük Məktəbi, eyni zamanda Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey və 4498 şagird yerlik 13 ümumtəhsil məktəbi olmaqla, ümumilikdə, 17 təhsil müəssisəsi üçün binalar tikilib və ya əsaslı şəkildə yenidən qurularaq şagird və müəllimlərin istifadəsinə verilib.

Qeyd olunub ki, bu il Naxçıvan şəhərində 3 və 13 nömrəli, Şərur rayonunda Çəmənli, Şahbuz rayonunda Kolanı kənd tam orta məktəbləri binalarının istifadəyə verilməsi, Şərur şəhər 2 nömrəli tam orta məktəb üçün binanın tikintisi və ya yenidən qurulmasının davam etdirilməsi də bu qayğının bariz nümunəsidir. Təhsilə göstərilən qayğının nəticəsidir ki, 2015-2016-cı dərs ilində tam orta məktəbi bitirən məzunlardan 14-ü qızıl, 13-ü isə gümüş medallara layiq görülüb. Medallara layiq görülmüş məzunlar onlara göstərilən etimadı doğruldaraq qəbul imtahanlarında uğur əldə ediblər. Belə ki, onların 12-si 600-650, 15-i isə 650-700 intervalında bal toplayıblar. Ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1538-i, yəni sənəd verənlərin 62 faizi tələbə adını qazanıb. Ali məktəblərə qəbul olan məzunların 338-i imtahanlarda daha yüksək nəticə göstərərək 500-700 intervalında bal toplayıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikamızda təhsilə göstərilən qayğı gənclərin ilbəil daha böyük uğurlara imza atmasına şərait yaradır. Elə ötən il muxtar respublika məktəblilərinin fənn olimpiadasında qazanılan nailiyyətlər də bundan xəbər verir.

Təhsil naziri vurğulayıb ki, bu olimpiada muxtar respublikada ilk dəfə olaraq keçirilib. Fizika, kimya, biologiya, riyaziyyat, Azərbaycan dili və xarici dil fənləri üzrə keçirilən olimpiadada VII-XI sinif şagirdləri iştirak ediblər.

Fənn olimpiadasının dekabr ayının 11-də keçirilən rayon (şəhər) mərhələsində 1018 nəfər iştirak edib. Bu mərhələdə qalib olmuş 211 şagird cari il fevral ayının 11-də Naxçıvan şəhərində keçirilən final mərhələsinə qatılıb. Həmin mərhələdə 106 şagird qalib gəlib. Onlardan 32-si I yer, 34-ü II yer, 40-ı isə III yerləri tutub.

Qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

## Səyyari xidmət fəaliyyətini genişləndirir

*Muxtar respublikamızda dinamik sosial-iqtisadi inkişafın bəhrələrini həyatımızın bütün sahələrində görmək olar. İnsanların layiq olduğu səviyyədə yaşamasına yönəldilmiş tədbirlərin reallaşdırılması, dövlət orqanları tərəfindən vətəndaşlara yerlərdə hüquqi xidmətlərin göstərilməsi istiqamətində görülən işlər də həmin tədbirlərin tərkib hissəsidir. Bunun ifadəsi kimi 2015-ci il martın 7-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyari xidmətin fəaliyyəti hər bir naxçıvanlı tərəfindən yüksək qiymətləndirilir.*

Nazirliyin əməkdaşı, polis kapitanı Seymur Tağıyevin sözlərinə görə, səyyari xidmət üçün nazirliyə “Hyundai” markalı avtomobil alınıb. Avtomobil xidmət sahələrinə uyğun olaraq, səyyari xidmətin göstərilməsi üçün kompüter, POS-terminal, fotoaparat, elektron məsafəölçən və digər avadanlıqlarla təchiz edilib. Səyyari xidmət avtomobili vasitəsilə yerlərdə vətəndaşlara ümumvətəndaş pasportlarının və şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, ov silahlarının qeydiyyata alınması üzrə hüquqi xidmətlər göstərilir. Avtomobildə quraşdırılan müasir avadanlıqlar ümumvətəndaş pasportlarının, şəxsiyyət və sürücülük vəsiqələrinin yerlərdə vətəndaşlara verilməsinə imkan yaradıb.

Seymur Tağıyevin verdiyi məlumata görə, 2015-ci il ərzində səyyari xidmətə 6320 müraciət olub. Onlardan 5123-ü şəxsiyyət vəsiqəsi, 1155-i sürücülük vəsiqəsi, 29-u ümumvətəndaş pasportu, 2-si ov silahlarının qeydə alınması, 11-i məhkumluq arayışı almaq üçün müraciətlərdir.

Xidmət 2016-cı ili də uğurla başa çatdırıb. Belə ki, bəhs olunan dövrdə səyyari xidmətə 6062 müraciət edilib. Onlardan 4627-si şəxsiyyət vəsiqəsi, 1386-sı sürücülük vəsiqəsi, 5-i ümumvətəndaş pasportu, 44-ü məhkumluq arayışı almaq üçün olunan müraciətlərdir.

Səyyari xidmət bu ilin yanvar ayında Şərur və Sədərək rayonlarında olub. Fevral ayında isə Culfa rayonunun Kırna, Milax, Göydərə, Babək rayonunun Nehrəm, Qahab, Sirab, Kərimbəyli, Zeynəddin, Məzrə, Xəlilli, Nəzərabad kəndlərində, Naxçıvan şəhərində, Şahbuz rayonunun Kükü və Kolanı kəndlərində əhaliyə xidmət göstərilib.

Ümumilikdə, fevral ayında səyyari xidmətə 564 müraciət olub.

**Xəbərlər şöbəsi**



# Qış sərt keçsə də...

***Bu qış təbiət muxtar respublika sakinlərinə ən sərt üzünü göstərdi. Soyuq hava şəraiti aylardır, davam edir. Ancaq təbiətin bütün bu şıltaqlıqlarına baxmayaraq, dondurucu şaxtanı bir nəfər belə, öz evində və ya iş yerində hiss etmir, həyat öz axarındadır. İdarə, müəssisə və təşkilatlar, xəstəxanalar, məktəb və bağçalar havaların şaxtalı keçməsinə baxmayaraq, adi iş günlərini davam etdirir, evlərə mavi yanacaq və elektrik enerjisi kəsintisiz olaraq verilir, yollarda nəqliyyatın hərəkətində heç bir maneələr yaranmır. Televiziya kanallarından dünyanın bir çox ölkələrində, həm də inkişaf etmiş ölkələrində, böyük şəhərlərdə qış fəslinin gətirdiyi çətinliklər qarşısında çarəsiz qalan insanları görürük. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində keçən qış fəsillərini, çəkilən əzab-əziyyəti görənlər əlaqədar qurumların sərt qışa bu qədər hazır olmalarını minnətdarlıqla qarşılayırlar.***

***1993-cü ildə yazırdılar:***

*Ehtiyac və məhrumiyyətlər onsuz da həddini aşıb. Bir yandan da soyuğu iliklərə işləyən qışın qapımızı kəsdirməsi qayğılarımızı artırıb. İndi yanacaq dərdi başqa dərdlərimizi üstələyib. İndi yüzlərlə ailə əlləri qoynunda soyuq evlərdə oturub uşaqlarını qışdan necə salamat çıxaracaqları barədə fikirləşir. Yaman günün ömrü az olar deyirlər. Lakin bu pis gün nə qədər gödək olsa da, öz işini görür.*

Ötən günlərin birində “Şərq qapısı” qəzetinin o illərdə işıq üzü görən nömrələrinin səhifələrini vərəqləyəndə böyük ürək yanğısı ilə qələmə alınmış bir yazı diqqətimi cəlb etdi. 13 yanvar 1993-cü il tarixli nömrədə dərc edilmiş “Namərdə möhtac olmaqdansa” sərlövhəli bu yazıdan bəzi sətirləri bölüşməmək olmur:

*“Beş ilə yaxındır ki, muxtar respublikamız blokadaya alınıb. 8 aydır ki, Naxçıvana gələn dəmir yolu işləmir. Buna görə də Azərbaycanla və digər respublikalarla iqtisadi əlaqələr kəsilib. Ehtiyac və məhrumiyyətlər onsuz da həddini aşıb. Bir yandan da soyuğu iliklərə işləyən qışın qapımızı kəsdirməsi qayğılarımızı artırıb. İndi yanacaq dərdi başqa dərdlərimizi üstələyib. 8 aylıq fasilədən sonra Naxçıvana gələn təbii qazın sevinci uzun çəkmədi, əvvəlki illərdə sobalarda, pilətələrdə normal şölələnən mavi alov gündən-günə azaldı, evlərin çoxunda tamam söndü. Tədricən “Qeybə çəkilən” yeganə yanacaq növü qış ərəfəsində adamlarımızda doğan ümid qığılcımını özü ilə bərabər söndürdü.*

*İndi yüzlərlə ailə əlləri qoynunda soyuq evlərdə oturub uşaqlarını qışdan necə salamat çıxaracaqları barədə fikirləşir. Yaman günün ömrü az olar deyirlər. Lakin bu pis gün nə qədər gödək olsa da, öz işini görür”.*

Bəli, elə bu yazı o illərdə Naxçıvan sakinlərinin nə qədər çətin, ümidsiz vəziyyətə düşdüklərini göstərir. Artıq bu yazının işıq üzü gördüyü tarixdən 24 il keçib və hər şey yaxşıya doğru dəyişilib. İndi Naxçıvan şəhərindən tutmuş ucqar dağ kəndlərinədək hər bir evdə, hər bir ocaqda mavi alov şölələnir. Naxçıvan şəhər sakini Adilə Əlimərdanovanın böyük bir minnətdarlıqla bizimlə bölüşdüyü təəssüratlar, yəqin ki, oxucularımız üçün də maraqlı olar:

– Həqiqətən də, o illərdə çox böyük əziyyətlər çəkdik. İndi yenidən sərt qışla qarşılaşanda, şaxtalı günlər başlayanda bir daha o günləri yada saldım, oğünkü şəraitimizlə bugünkü yaşayışımızı müqayisə etdim. İndi evimizdə mavi yanacaq da var, işıq da. İşlədiyim uşaq bağçasında soyuq qış aylarında yaranan şəraiti xatırlayanda çox kədərlənirəm. O illərdə bağçaya uşaq gətirən valideynlər burada övladlarının isti otaqda oturacağına ümid edirdilər. Ancaq evlərdə olduğu kimi, bağçalarda da vəziyyət ürəkaçan deyildi. Uşaqları elə üst geyimlərində oturdur, yatırırdıq. Uşaqların göyərmiş dodaqlarını, sual dolu nəzərlərlə mənə zillənmiş baxışlarını görəndə nə edəcəyimi bilmirdim. O gündən bu günə çox şey dəyişilib. Bu günlərdə nəvəmi bağçadan götürməyə getmişdim, gördüm ki, otaq çox isti olduğundan bu şaxtada pəncərələri açıblar. Sözün düzü, ürəyim dağa döndü.

Naxçıvan şəhər sakini Ziya Həsənov o günləri belə xatırlayır:

– Yaxşı yadımdadır, o illərdə ümidimiz camaat arasında “maşınka” deyilən qızdırıcıya qalmışdı. Binada yaşamağımıza baxmayaraq, nə istilik, nə də elektrik enerjisi vardı. Evdə yeməyi də bu “maşınka”larda bişirirdilər, paltarları da onların istisi ilə qurudurdular. Bir də görürdün ki, kustar üsulla hazırlanan, neftlə yanan bu soba öz- özünə alışdı və onu götürüb balkondan aşağı atmaqdan başqa çarə qalmırdı. Bunlardan cana gəlib, sonunda gedib bir neft sobası alıb gətirdim və evdə quraşdırdım. Ancaq bu, işin başlanğıcı idi. İndi neft tapmaq lazım gəlirdi. Səhər saat 6-da oyanıb yanacaqdoldurma məntəqəsinə yollandım. Elə güman edirdim ki, oraya ən tez mən çatacağam. Ancaq ora çatanda gördüm ki, fikrimdə yanılmışam. Qışın sərt şaxtasına baxmayaraq, 10 litr neft almaq üçün insanlar axşamdan gəlib sıra tutmuşdular. Şaxtaya tab gətirməyib yaxınlıqdakı evlərinə yollanan qadın və uşaqların yerində isə “sıra daşları” qaralırdı. Hər kəs yerinə bir daş düzürdü ki, gələndə yenidən öz yerini tuta bilsin. Birtəhər neft alıb evə qayıtdım, sobanı yandırdıq. Bir neçə dəqiqə sonra evdə, necə deyərlər, “göz-gözü görmədi”. Hə, o illərin ən sərt qışlarını bax belə keçirmişik. Balaca, ikiotaqlı evimizi qızdıra bilməmişik. Ancaq yaman günün ömrü az olar, – deyirlər. O günlər arxada qaldı. İndi yaşadığım bina Naxçıvan şəhərinin müasir kommunal şəraiti olan yüzlərlə tikililərindən biridir. Binamızı müasir qazanxana 24 saat qızdırır. İşığımız da var, içməli suyumuz da, istiliyimiz də. O çətin günləri görən bir şəhər sakini kimi insanların qayğısına qalanlara, dövlətimizə minnətdarlığımı bildirirəm.

Bəli, artıq kiçik çillə arxada qalsa da, sanki qış yenidən gəlirmiş kimi şaxtalı havalar davam edir.

***Bu gün isə yazırıq:***

*Bəli, artıq kiçik çillə arxada qalsa da, sanki qış yenidən gəlirmiş kimi şaxtalı havalar davam edir. Bu qış sərtliyinə görə ötən əsrin 90-cı illərin əvvəllərindəki qış fəsillərinə bənzəsə də, onun insan həyatında, xüsusən şəhər təsərrüfatındakı çətinliyi, demək olar ki, hiss olunmur. Çox da uzağa getməyək, hər gün hətta inkişaf etmiş ölkələrdə belə, qar və soyuğun yaratdığı fəsadlar haqqında xəbər tuturuq. Amma görürük ki, bizi də nə zamansa imtahana çəkmiş bu qar indi nə qədər çox yağsa da, vaxtında görülmüş qışa hazırlıq işləri və operativ tədbirlər nəticəsində heç kimə heç bir çətinlik yaratmır.*

Bu qış sərtliyinə görə ötən əsrin 90-cı illərindəki qışa bənzəsə də, onun insan həyatında, xüsusən şəhər təsərrüfatındakı çətinliyi, demək olar ki, hiss olunmur. Çox da uzağa getməyək, hər gün hətta inkişaf etmiş ölkələrdə belə, qar və soyuğun yaratdığı fəsadlar haqqında xəbər tuturuq. Amma görürük ki, bizi də nə zamansa imtahana çəkmiş bu qar indi nə qədər çox yağsa da, vaxtında görülmüş qışa hazırlıq işləri və operativ tədbirlər nəticəsində heç kimə heç bir çətinlik yaratmır.

Qışda hər kəsin öz qayğısı vardır. Balacalar qışın sevincini yaşamaq üçün doyunca qartopu oynamağı, gənclər ağappaq təbiətin qoynunda yürüş edib əylənməyi, böyüklər isə onların bu xoşbəxt anlarından daha çox zövq almağı arzu edirlər. Ancaq qış fəslində küçə və yollarda rahat hərəkətin, evlərdə isə normal istiliyin təmin olunması vacib qayğı kimi hər kəsi düşündürür. Naxçıvan şəhərində, eləcə də muxtar respublikamızın digər yerlərində qışa hazırlıqla bağlı vaxtında görülmüş tədbirlər qışın belə qayğısız və çətinliksiz keçməsinə imkan yaradıb.

Naxçıvanın yayı isti olduğu kimi, qışı da sərt keçir. Ancaq, deyəsən, ötən illərdən fərqli olaraq builki qış daha çox yadda qalacaq. Naxçıvan qışa hazırlıq sahəsində də nümunəvi bir məkan kimi tanınıb. Sosial şəbəkələrdən və digər informasiya kanallarından görürük ki, dünyanın digər yerlərinə cəmisi 20 santimetr qar yağanda hansı çətinliklər yaranır və bu yerlərin sakinləri nə qədər əziyyətlər çəkirlər. Ancaq hər il, hələ payız gəlmədən Naxçıvanda qışa hazırlıqla bağlı ənənəvi olaraq keçirilən müşavirələrdə bu məsələ müzakirə olunur, əlaqədar təşkilatlar qarşısında konkret vəzifələr müəyyənləşdirilir. Yol, istilik və digər kommunal xidmətlərin qışın oğlan çağında operativ işləyə bilməsi üçün verilmiş tapşırıqlar vaxtında icra olunduğu üçün bu məsələdə heç bir axsama müşahidə olunmur. Nəticədə, Naxçıvanda qış fəsli ciddi narahatlıqlar doğurub, normal yaşayış üçün heç bir çətinlik yaratmır.

Naxçıvan şəhərində inzibati və yaşayış binalarının istiliklə təmin olunması məqsədilə görülmüş bütün işlər öz bəhrəsini verib. Artıq çox hissəsi arxada qalmış builki qış mövsümündə hansı işlər görüldüyünü öyrənmək üçün Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsinin rəisi Əli Qurbanovla əlaqə saxladıq. İdarə rəisi ilə şəhərdəki qazanxanaların birinin qarşısında görüşdük. Söhbətində bildirdi ki, hazırda Naxçıvan şəhərində 5-i mərkəzi, 38-i fərdi olmaqla, 43 qazanxana fəaliyyət göstərir. Bu qədər geniş istilik təsərrüfatı şəhərimizdə 30 inzibati və 173 yaşayış binasını fasiləsiz olaraq istiliklə təmin edir. İstilik təsərrüfatında fəaliyyət göstərən 330 nəfərdən çox işçi əhalinin davamlı olaraq istiliklə təmin olunması üçün səfərbər olunub. Mövsümün əvvəlində bir sıra qazanxanalarda və yaşayış binalarının istilik xətlərində aparılmış təmir və yenilənmə işləri belə sərt havalarda onlara çox kömək edib. İşçilərin öz işlərini yaxşı mənimsəməsi, onların xüsusi geyim formaları ilə təmin olunması da nəzarətdə saxlanılıb.

Bu qış Naxçıvanda bir neçə dəfə yağmış qar yolları tamamilə bağlasa da, cəmisi bir neçə saat ərzində yollar yağan qardan təmizlənərək bütün küçələrdə nəqliyyatın və piyadaların rahat hərəkəti təmin olundu. Xüsusən bu ilin əvvəlində qalınlığı 40 santimetrə çatan qarın yollarda qalıb buz bağlamadan arınması üçün çox operativ işlər görüldü. Muxtar respublikanın ən ucqar dağ kəndlərinə aparan yollar belə, qısa zamanda qardan və buzdan təmizləndi, yollarda regionun şəhər mərkəzlərinə nümunə ola biləcək səliqə-sahman yaradıldı.

Bu barədə söhbət etdiyimiz Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin rəisi Hüseyn Həziyev deyir ki, şəhər təsərrüfatında fəaliyyət göstərən 400 nəfər işçinin və 30-dan artıq müxtəlif texnikanın qüvvəsindən səmərəli istifadə olunub. Qışda yolların təmizlənməsi üçün texnika həmişə saz vəziyyətdə saxlanılıb, lazımi qədər qum ehtiyatı yaradılıb. Şübhəsiz, qar və soyuğa qarşı hazırlıqlı olmaq həmişə ciddi sınaqdır. Bu il də bütün şəhər təsərrüfatı ilə birgə bu çətinlikləri çox qısa müddətdə aradan qaldırdıq, naxçıvanlıların qışda əziyyət çəkmədən istədikləri yerə gedə bilməsi üçün çalışdıq. Təqvim olaraq qış sona yaxınlaşsa da, havalar hələ də soyuqdur. Deməli, qışa hazırlığa ciddi yanaşmalı, qarşımıza qoyulmuş vəzifələri layiqincə yerinə yeriməliyik.

*Bəli, builki sərt qışın çətinlikləri olmasa da, bir vaxtlar naxçıvanlılar soyuqdan, qar-çovğundan çox əziyyət çəkiblər. Amma indi muxtar respublikamıza xüsusi yaraşıq verən qar mənzərələrində əylənib rahat yollarla isti evlərinə qayıdan uşaqlar bunları ancaq böyüklərdən eşidirlər.*

**Əli CABBAROV**

***Muxtar respublikada istehsal olunan yerli kənd təsərrüfatı məhsullarının satışı üçün yaradılan infrastrukturun daha da müasirləşdirilməsi məqsədilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İnşaat işləri Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən aparılır.***

## Naxçıvan şəhərindəki Mərkəzi bazarda əsaslı təmir və yenidənqurma işləri aparılır



İş icraçısı Cəlal Seyidovun verdiyi məlumata görə, Mərkəzi bazarda yerləşən və açıq hava şəraitində kənd təsərrüfatı məhsullarının satışı üçün nəzərdə tutulan bölmədə aparılan yenidənqurma işləri davam edir. Burada plastik lövhələrlə düzəldilən yan divarlar alçıpan örtüklərlə bərkidilir, plastik qapı və pəncərələr salınır, suvaq və boyaq işləri görülür. Elektrik və digər kommunikasiya xətləri çəkilir, piştaxtalar təmir olunub boyanır. Görülən bütün işlərdə yerli inşaat materiallarından istifadə edilir.

Bazarda aparılan yenidənqurma işləri yaxın vaxtlarda yekunlaşacaq. Bununla da, ilin bütün fəsillərində sahibkarların istehsal etdiyi kənd təsərrüfatı məhsullarının satışına əlverişli şərait yaradılacaqdır.

Qeyd edək ki, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul olunan dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, aqrar sahədə müasir infrastrukturun yaradılması kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə də əkinçiliyin inkişafına əlverişli şərait yaradıb, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olub.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi də muxtar respublikada əhalinin keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təminatına imkan verir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası ötən ildə də davam etdirilib, muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik 372 meyvə sortunun və “Araz” Elm-İstehsalat Birliyinin kolleksiya bağında 54 üzüm sortunun genetik fondu toplanıb. Həmin sortların çoxaldılaraq torpaq mülkiyyətçilərinə paylanması və yeni bağların salınması ilə əlaqədar işlər aparılıb. Bu dövrdə tərəvəz əkini sahələrinin genişləndirilməsinə də diqqət artırılıb, nəticədə, daxili bazarın yüksəkkeyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təminatına əlverişli şərait yaradılıb.

Kənd təsərrüfatı məhsullarının rayon və kənd yerlərində qəbulunun təşkili, soyuducu kameralarda saxlanması üçün texnologiyaların mənimsənilməsi, meyvə-tərəvəzin ilkin emalı və çeşidləndirilməsi üçün zəruri infrastrukturların yaradılması, eləcə də markalanma və qablaşdırılmasının yerinə yetirilməsi üçün optimal avadanlıqların müəyyən edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Əhalinin ucuz və keyfiyyətli məhsullarla tələbatının ödənilməsi məqsədilə Naxçıvan şəhərində və rayon mərkəzlərində həftənin şənbə və bazar günləri kənd təsərrüfatı, emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunur.

**Kərəm HƏSƏNOV**



# Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə hansı təsirləri olub?

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 24 yanvar 2017-ci il tarixdə “Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında” Sərəncam imzalayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 yanvar 2017-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı Naxçıvan Muxtar Respublikasında həyata keçiriləcək Tədbirlər Planı”na uyğun olaraq muxtar respublikamızda silsilə tədbirlər keçirilir.*

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları öz havadarlarının köməyi ilə Azərbaycanın qədim və zəngin mədəniyyətə malik yaşayış məskəni olan Xocalıda soyqırımı törədərək XX əsrin ən böyük hərbi cinayətini həyata keçiriblər. Törədilmiş cinayətin qəddarlığı həm də onda özünü göstərib ki, şəhərdə bütün tarixi-mədəniyyət abidələri vəhşicəsinə dağıdılıb, yaşayış məskəni yer üzündən silinib. Təbii ki, vaxt gələcək bu hadisəni törədənlər Azərbaycan xalqı, haqq-ədalət qarşısında cavab verəcəklər. Xocalı Azərbaycanın qədim tarixini, maddi-mədəniyyət nümunələrini köksündə yaşadan bir diyar olub. Xocalı-Gədəbəy mədəniyyəti kimi tarixə düşən bütöv bir tarixi mədəniyyətin izləri məhz bu yaşayış məskənində qeydə alınıb. Məlumat üçün bildirək ki, Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında Son Tunc və İlk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Xocalı-Gədəbəy mədəniyyətinin izləri Naxçıvanın arxeoloji abidələrində, Naxçıvanın Boyalı qablar mədəniyyəti isə Xocalı-Gədəbəy mədəniyyətində öz izini buraxıb. Bəs son illər muxtar respublikada aparılan arxeoloji tədqiqatlar bu sahədə daha hansı xarakterik xüsusiyyətləri ortaya çıxarıb?

Üçcildlik “Naxçıvan tarixi”nin I cildində qeyd olunur ki, eradan əvvəl II minilliyin sonu və I minilliyin əvvəlində Naxçıvanın tarixi mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olub. Bu dövrə aid mədəniyyət abidələrinin bir qrupu boyalı, digər qrupu isə boz rəngli keramikanın üstünlük təşkil etməsi ilə fərqlənir. Qızılburun və Plovdağdan aşkar olunmuş boyalı keramika ilə fərqlənən qəbir abidələri üçün tək, cüt və kollektiv dəfnlər xarakterikdir. Boz rəngli keramika ilə seçilən qəbir abidələrini üç qrupa bölmək olar. Birinci qrupa skeletsiz qəbir abidələri daxildir. Arxeoloji materialların təhlilinə əsasən, bu qrupun Orta Tunc dövrü mədəniyyətinin davamı olduğunu demək olar. İkinci qrupa kollektiv dəfnlərlə xarakterizə edilən torpaq qəbirlər, üçüncüyə isə kollektiv dəfnlərin xarakterik olduğu daş qutu tipli qəbirlər aiddir. Sonuncu iki qrupda Xocalı-Gədəbəy mədəniyyətinin təsiri əks olunub. Xatırladaq ki, bu dövrdə Azərbaycan ərazisində Xocalı-Gədəbəy mədəniyyətinin formalaşması prosesi gedib. Azərbaycanın şimalında təşəkkül tapan bu mədəniyyət oradan Azərbaycanın cənub rayonlarına, o cümlədən Naxçıvana yayılıb. Naxçıvan ərazisində bu mədəniyyətin təsiri I Kültəpə, II Kültəpə, Şahtaxtı, Kolanı, Sarıdərə, Boyəhməd, Hakkıxlıq və digər abidələrdə izlənilib. Naxçıvanın dağlıq və dağətəyi zonasında Xocalı-Gədəbəy mədəniyyətinin təsirini əks etdirən yaşayış yerlərində həyat mövsümi xarakterdə olduğu üçün mədəni təbəqə az yığılıb. Bu da həmin tayfaların köçəri həyat sürdüyünü və təsərrüfatda maldarlığın əsas yer tutduğunu təsdiq edir. Bu qrupa məxsus abidələrdən xeyli miqdarda silah tapılması, tayfa başçısına aid qəbrin aşkar olunması müəyyən hərbi qüvvəyə malik iri tayfa birliklərinin formalaşdığını göstərir. Bu dövrdə Naxçıvanda tayfa ittifaqlarının formalaşmasında Azərbaycanın şimalında və cənubunda məskənləşən aborigenlərin müəyyən rolu olub.

Aparılan tədqiqatlara görə, Xocalı-Gədəbəy mədəniyyətinin Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə təsiri bu tayfaların cənuba doğru hərəkəti ilə bağlı olub. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti elementləri ilə seçilən abidələrlə yanaşı, boyalı qablarla xarakterizə olunan abidələrin mövcudluğu, Boyalı qablar mədəniyyəti üçün xarakterik olan elementlərin, o cümlədən çaynik tipli qabların Xocalı-Gədəbəy tipli abidələrdə və əksinə, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik elementlərin Boyalı qablar mədəniyyəti nümunələrində yayılması bu tayfalar arasında siyasi və mədəni birləşmə prosesinin getdiyini göstərir. Boyalı qablar mədəniyyətinin geniş yayıldığı I Kültəpə, II Kültəpə və Şahtaxtıda Xocalı-Gədəbəy mədəniyyətinə məxsus elementlərin izlənməsi müəyyən əhali qrupunun, ola bilsin ki, hərbi qarnizonların bu yaşayış yerlərində məskunlaşdığını göstərir. Şübhəsiz ki, bu hadisələr Assuriyanın Azərbaycanın cənubuna fəal hərbi müdaxiləsi ilə əlaqədar tayfalar arasında yaranan hərbi-siyasi ittifaqla bağlı olub. Eradan əvvəl II minilliyin sonu və I minilliyin əvvəlində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr və xarici işğal təhlükəsi lullubi və kutilərin Urmiya gölü hövzəsində yenidən möhkəmlənməsinə, Manna dövlətinin meydana gəlməsinə səbəb olub.

Tədqiqatçılara görə, Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan dəfn adəti və keramika məmulatı Azərbaycanda V-II minilliklərdə geniş yayılıb. Kür-Araz mədəniyyətinin müəyyən xüsusiyyətləri eradan əvvəl II minilliyin sonu və I minilliyin başlanğıcına aid abidələrdə kifayət qədər izlənib. Azərbaycanın, o cümlədən Naxçıvanın Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində it, dələ kəlləsi, xırdabuynuzlu heyvanın çənə sümükləri ilə basdırılma adətinə təsadüf edilib ki, bu da yerli xüsusiyyətləri əks etdirir. Antropoloq R.Qasımova Kolanı nekropolundan aşkar olunan kəllə sümüklərini tədqiq edərək onların yerli etnoslara aid olduğunu və müasir azərbaycanlıların etnogenezinin əsasında dayandığını qeyd edib.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın cənub rayonlarında Boyalı qablar mədəniyyəti yayıldığı zaman Kür-Araz mədəniyyəti tayfaları Azərbaycanın şimalında kompakt halda yaşamaqda davam edib. Odur ki, tarixçilər Xocalı-Gədəbəy mədəniyyətini yaradan tayfaların Kür-Araz mədəniyyəti tayfalarının varisləri olduğu və aborigenlərdən ibarət olduğu qənaətindədirlər.

*Ümumilikdə isə gəlinən nəticə ondan ibarətdir ki, Naxçıvan ərazisində Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin aşkar olunması bu regionun Azərbaycanla vahid etnik-mədəni rayona daxil olduğunu təsdiq edən tutarlı dəlillərdən biridir. İnanırıq ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Xocalıda aparılacaq tədqiqatlar bu qədim mədəniyyətin izləri haqqında bizə əlavə məlumatlar verəcək.*

**Səbuhi HƏSƏNOV**
*Mənbə: “Naxçıvan tarixi” I cild*

---

***Tarixboyu atalarımız Vətənimizin azadlığı, düşmən tapdağı altına düşməməsi üçün qılınc götürüb, zireh geyinəndə döyüş meydanında şərəfli ölümü arzu ediblər. Biliblər ki, arxaya atılacaq hər bir addımdakı torpaq Vətənimizin bir qarışıdır, bu torpağın altında minlərlə şəhid yatır, geriyə yol yoxdur. Əcdadlarının miras qoyub getdiyi ulus əmanətdir, bu əmanətə isə xəyanət etmək olmaz. Beləcə, yüz illər, min illər keçib, xalqımız şəhid verə-verə öz varlığını sürdürüb, bu günlərə gəlib çatıb. Başqa sözlə, şəhid qanlarıyla suvarılan Vətən torpağı öz mübariz övladlarının, qəhrəmanlarının sayəsində dünən də var olub, bu gün də. Nə qədər ki uğrunda hər an canından keçməyə hazır olan oğul və qızlarımız var, bundan sonra da dünya xalqları içində söz sahibi olacağımız şəksiz, şübhəsizdir.***



*Milli qəhrəmanlarımız*

# Şəhidlik elə bir zirvədir ki...

…Yolumuz Şərur rayonunun Qarahəsənli kəndinədir. Burada torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş Milli Qəhrəman Kərim Kərimovun doğulub boya-başa çatdığı ocağı ziyarət edəcəyik.

Kərim Kərimov haqda az məlumatı olanlar üçün deyim ki, xalqımızın bu igid övladı 2 iyul 1971-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Rusiyanın Tümen vilayətinə gedib və Ali Hərbi Mühəndis-Komandirlər Məktəbinə qəbul edilib. Siyasi və hərbi hazırlıq əlaçısı olub. Qarabağda döyüşlər şiddətlənəndə onunla bir yerdə təhsil alan 15 nəfər azərbaycanlı kursantı ətrafına toplayıb deyib: “Bu gün Vətənimizin ağır günüdür. Ölkənin hərbi mütəxəssislərə böyük ehtiyacı var. Əgər biz günahsız insanların Qarabağda axıdılan qanına biganə qalsaq, onda Vətən bizi bağışlamaz”. Beləliklə, Tümen Ali Hərbi Mühəndis-Komandirlər Məktəbinin son kursunda təhsil alan tələbələr Azərbaycana qayıdıb təhsillərini Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində davam etdiriblər. Onlar Biləcəridə təlim keçdikdən sonra 1992-ci il aprelin 15-də Goranboy rayonuna yola düşüblər. İlk gündən “Tümendən gələn zabit” kimi tanınan 21 yaşlı Kərim Kərimov istehkamçılar bölməsinə komandir təyin olunub. O, verilən bütün tapşırıqları vaxtında və yüksək dəqiqliklə yerinə yetirib. 1992-ci il mayın 1-də Tapqaraqoyunlu kəndi ətrafında minalanmış sahələrin zərərsizləşdirilməsi əməliyyatı başlanıb. Əməliyyat zamanı bir nəfər əsgərimiz yaralanıb. Döyüşçüyə birinci qrup qan lazım olanda ilk dəfə Kərim özü qan verib. Mayın 5-də Kərim bir neçə döyüş yoldaşı ilə birlikdə quldurlar yuvasına çevrilən Talış təpəsinə qalxıb. Onların döyüş hünəri sayəsində 40 nəfərə yaxın erməni qulduru məhv edilib. Bölmə döyüşə-döyüşə yüksəkliyi ələ keçirib. Səhər saat 5 radələrində düşmən güclü hərbi texnikanın köməyilə onları mühasirəyə alıb. Şiddətli döyüş başlanıb. Kərim öz avtomatını yoldaşına verib, qumbaraatanla hücuma keçib. Düşmənin bir döyüş maşını vurulub. İkinci maşına atəş açılanda artıq Kərim yaralanmışdı. O, əsir düşməmək üçün odlu siqnal fişəngini sinəsinə sıxıb. Erməni quldurları Kərimin və onun bir neçə döyüş yoldaşının nəşini götürüb aradan çıxıblar. İyunun 12-də kəndlərin erməni silahlı quldur dəstələrindən təmizlənməsi əməliyyatı başlanıb. Milli Ordumuza əsir düşmüş iki erməni döyüşçüsünün verdiyi məlumatla Kərimin fermanın yanında basdırılmış, daha doğrusu, üstü şifer qırıntılarıyla örtülmüş nəşi tapılıb. Onunla birlikdə daha üç nəfərin nəşi orada olur. Kərimin nəşi Gəncə aeroportuna gətirilib Naxçıvana yola salınıb. 1992-ci il mayın 5-də Goranboy döyüşlərində qəhrəmancasına şəhid olmuş Kərim Kərimov iyunun 17-də doğma kəndi Qarahəsənlidə torpağa tapşırılıb. 11 sentyabr 1992-ci il tarixli fərmanla Kərimov Kərim Məhəmməd oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Qarahəsənli kəndində onun büstü qoyulub. Goranboy və Şərur rayonlarında adı əbədiləşdirilib.

Milli Qəhrəmanımızın ata ocağında bizi igidimizin anası Xədicə Kərimova qarşılayır, “xoş gəldiniz”, – deyir. Kərim Kərimovun atası Məhəmməd kişi də tezliklə gəlib çıxır. Onu da deyim ki, Milli Qəhrəman atası o qanlı-qadalı illəri, baş verən hadisələri dəqiqliklə xatırlayır, oğlunun nəşini gətirməyə gedərkən qarşılaşdığı insanların ad və soyadlarını, onlarla olan söhbətləri sətir-sətir dilə gətirir. Övladını itirmiş bir ataya oğlu ilə bağlı sual verməklə üstü qaysaqlanmış yaraları yenidən qoparmaq kimidir. Ancaq nə etmək olar? Ata verilən sualları dəyanətlə cavablandırır, hər kiçik detalı belə yada salmağa çalışır:

– Oğlumun xarakterinə yaxşı bələd idim və Tümendən bir qrup zabitin Azərbaycana döndüyünü eşidəndə qəti olaraq bilirdim ki, onların içində Kərim də var. Sonra eşitdim ki, bu zabitlərin hamısı Qarabağda döyüşür. Cəbhə xəttindən tez-tez teleqramlar gəlməyə başladı. Kərim yazırdı ki, hər şey qaydasındadır. Heç vaxt ürəyim rahat olmurdu, səksəkədə idim. Deyirlər, döyüş meydanında güllə özü axtarıb səni tapır.

Bu andaca Məhəmməd kişinin söhbətində kiçik bir fasilə yarandı, otağa sükut çökdü. Bilirəm ki, şəhid atası o illərə qayıdıb, onu bu düşüncələrdən ayırmaq olmaz.

…Milli Qəhrəmanımızın anası həyat yoldaşının söhbətini səssiz-səmirsiz dinləyir, arabir divardakı şəkildə sərv qamətli oğluna baxır. Qürur hissi keçirdiyi üzündən oxunur. İgid anasının mətanəti, dözümü məni heyrətləndirir. Araya çökən sükutdan istifadə edib yavaşca ona yaxınlaşıram. Milli Qəhrəmanımız haqqında danışmasını xahiş edib onu düşüncələrdən ayırıram.

– Kərim öz şəhid adı ilə məni başqalarından fərqləndirib. Artıq 28 ildir ki, mən adi bir kənd sakini yox, Milli Qəhrəmanı, canını Vətən yolunda qurban vermiş bir oğulu dünyaya gətirən qadınam. Bilirəm ki, insanlar da mənə elə o gözlə baxırlar. Ona görə də heç bir zaman özümü insanlar içində kədərli, qəmli, oğul acısı çəkən ana kimi göstərə bilmərəm. Ona görə göstərə bilmərəm ki, mənən sarsılmış bir qadından başqalarına nümunə ola bilməz. Bəzən toylarda qol götürüb süzən cavanları görüb düşünmüşəm ki, Kərim də kaş burda olaydı, onun da toyunu görəydim. Sonra öz-özümə demişəm ki, yox, Xədicə, sənin oğlun olması lazım olan yerdə olub, əgər o və onun kimilər orda olmasaydılar, daha çox ana öz övladı üçün ağlayacaqdı.

Milli Qəhrəmanın ata ocağından ayrılandan sonra onun məzarını ziyarət edirik. Qarahəsənli qəbiristanlığının daş hasarını keçib bir neçə addım getdikdən sonra üzərində qəhrəmanımızın və kənddən olan daha bir şəhidimizin – Muxtar Məmmədovun şəkilləri olan başdaşıları ilə qarşılaşıram. Kərimin baxışlarında sanki bir nigarançılıq, bir narahatlıq var. Bu hələ də düşmən işğalı altında olan Qarabağın, hər gün düşmən gülləsilə diksinən Tapqaraqoyunlunun, orada qoyub gəldiyi insanların gələcək taleyinin nigarançılığıdır. Öz-özümə “Nigaran qalma, qəhrəman!”, – deyirəm, Qarabağın azad olunmasına çox az qalıb, mənfur düşmən öz qanında boğulacaq, sənin və sənin kimi yüzlərlə şəhidimizin qanı yerdə qalmayacaq. Əgər siz olmasaydınız, yurd da olmazdı, Vətən də. Hər bir igidimizin tökülən bir damla qanının yerdə qalmaması üçün qələbə naminə canından keçmiş ərənlərimizin, ölməzlik, əbədiyyət qazanmış şəhidlərimizin ruhuna and içməliyik. Elə bu gündən and içməliyik.

Bizi kənd məktəbinin önündən Kərimin büstü yola salır... Ehtiramla baş əyib, pıçıltıyla “Yenə görüşənə qədər, qəhrəman!” – deyirəm.

Qarahəsənli kəndindən bir az aralıda, ətrafı əkin sahələri ilə çevrələnmiş bir körpü var. Bu körpü Kərim Kərimovun adını daşıyır. Kərim və onun kimi minlərlə şəhidimiz də Azərbaycan üçün polad körpüdür, həm də əyilməyən, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü qədər ağır bir yükü dünənimizdən bu günümüzə ötürən qəhrəmanlıq körpüsü. Bu günümüzdən gələcəyimizə atılan polad körpülərimizin dayağı isə güclü dövlət, yenilməz ordu, sağlam əqidə, Vətənə və dövlətə sədaqətdir.

**Səbuhi HÜSEYNOV**

*Son illər dünyada qaraciyər xəstəliklərindən əziyyət çəkən insanların sayı nəzərəçarpacaq dərəcədə artıb. Hazırda dünya əhalisinin 2 milyard nəfərdən çoxu qaraciyər xəstəliklərindən əziyyət çəkir. MDB ölkələrində isə hər il 500 mindən 1 milyona qədər insan bu və ya digər qaraciyər patologiyası ilə ilk dəfə qeydiyyatdan keçir. Bütün bunları və qaraciyər xəstəlikləri ilə bağlı problemlərin aktuallığını nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərovla söhbət etdik. Müsahibimiz, ilk növbədə, qaraciyərin orqanizmdə rolu barədə məlumat verdi:*

*Həkim məsləhəti*

# Hepatit biz düşündüyümüzdən daha yaxındır

– Qaraciyər orqanizmdə yüzlərlə funksiyanı yerinə yetirir. Bunlardan ən mühümü isə filtr və baryer funksiyalarıdır. İnsan yaşadığı müddətdə onun orqanizmi ən müxtəlif toksiki təsirlərə məruz qalır. Zərərli maddələrlə "zənginləşən" qan sutka ərzində 400 dəfə qaraciyərdən keçir və məhz burada toksinlərdən təmizlənərək orqan və toxumalara qayıdır. Bir sözlə, qaraciyər bədənin sağlamlığını ömürboyu qoruyan əsas orqanlardan biridir. Görkəmli alim İbn Sina bildirirdi ki, "Qaraciyər sağlam olarsa, deməli, bütün orqanizm sağlam olar".

***– Muxtar respublikamızda qaraciyər xəstəliklərinin profilaktikası, müayinə və müalicəsi üçün hansı imkanlar var? Bu sahədə görülən tədbirlər nədən ibarətdir?***

– Qeyd edim ki, müasir dövrdə Naxçıvan səhiyyəsi inkişaf edir, bu sahədə köklü dəyişikliklər baş verir. Muxtar respublikamızın bütün bölgələrində yeni tibb müəssisələri tikilib, mövcud səhiyyə ocaqları əsaslı təmir edilib və ən müasir avadanlıqlarla, cihazlarla təmin olunub. Bu iş indi də davam etdirilir. Səhiyyə işçiləri inkişaf etmiş tibb təhsili mərkəzlərində təcrübə keçirlər. Son illərin quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Yoluxucu Xəstəliklər Mərkəzində, Diaqnostika-Müalicə Mərkəzində müasir təbabətin ən son nailiyyətləri tətbiq edilir. Beləliklə, bütün bunlar onu deməyə əsas verir ki, güclü maddi-texniki bazası və yüksək səviyyəli ixtisaslı kadrları olan səhiyyə müəssisələrimizdə digər xəstəliklərlə yanaşı, qaraciyər xəstəliklərinin də diaqnostika və müalicəsi üçün lazımi şərait mövcuddur.

Virus hepatitləri və onlarla əlaqədar xəstəliklərə görə profilaktika, skrininq tədbirlərinin gücləndirilməsi, B virusu hepatiti əleyhinə vaksinasiya ilə əhatə olunmanın genişləndirilməsi və bu peyvəndin milli immunizasiya proqramlarına inteqrasiyası, eləcə də hepatitə qarşı qlobal cavab tədbirlərinin əlaqələndirilməsi müasir dünya səhiyyəsinin əsas fəaliyyət istiqamətlərindən biridir. Muxtar respublikamızda da bu istiqamətdə ardıcıl tədbirlər görülür. Ötən il dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə bu məsələ geniş müzakirə olunmuş və konkret tapşırıqlar verilmişdir. Həmin tapşırıqlara əsasən, müvafiq orqanların nümayəndələri gözəllik salonlarında, iaşə obyektlərində monitorinqlər keçirir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin müvafiq sektorları hepatit xəstələri üçün test və reaktivlərin vaxtında sifariş verilməsi və alınmasına nəzarət edir, rayonlarda hepatitlərə görə aparılan müayinələrin nəticəsi haqqında məlumat verilir. Muxtar respublikada fəaliyyət göstərən orta məktəblərdə tədris prosesində hepatitlərə aid maarifləndirici dərslər təşkil olunur.

***– Qaraciyər xəstəliklərinin profilaktikasında əhalinin maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Oxuculara bu xəstəliyin ən geniş yayılmış formaları barədə məlumat verməyiniz yerinə düşərdi.***

– Qaraciyərin xroniki xəstəlikləri arasında B və C virus mənşəli xroniki hepatitlər daha geniş yayılıb. Müəyyən olunub ki, xroniki infeksiyalaşmış xəstələrin 10-20 faizində qaraciyər sirrozu, 5 faizində hepatosellülyar karsinoma inkişaf edir. Son illər sürətlə yayılması ilə nəzəri cəlb edən digər bir xəstəlik qaraciyərin qeyri-alkoqol mənşəli piy xəstəliyidir. Adından da göründüyü kimi, bu patologiya spirtli içkilərin qəbulu ilə əlaqəli deyil. Əvvəllər bu xəstəlik qaraciyərin piyli distrofiyası kimi qəbul edilirdi və xoş gedişli hesab olunurdu. Son illərin müşahidələri isə göstərir ki, o, inkişaf etməyə meyillidir, getdikcə digər mərhələlərə – steatohepatitə və son nəticədə, qaraciyərin sirrozuna keçə bilir. Qaraciyərin qeyri-alkoqol mənşəli piy xəstəliyinin inkişaf etməsinin əsas səbəbləri piylənmə, şəkərli diabet və metabolik sindrom hesab olunur.

***– Qaraciyərin xroniki xəstəliklərinin əsas əlamətləri hansılardır?***

– Bu xəstəliklərin əsas xüsusiyyətləri onların əksər hallarda simptomsuz və ya az nəzərəçarpan simptomlarla müşahidə olunmasıdır. İlk dövrlər meydana çıxan əlamətlər spesifik olmur. Belə ki, çox zaman xəstədə qrip, zökəm xəstəliklərində olduğu kimi, zəiflik, əzginlik, yüngül hərarət, oynaqlarda ağrılar və sair müşahidə edilir. Qaraciyər xəstəlikləri üçün səciyyəvi olan əsas əlamətlər – sarılıq, dəridə damar "ulduzcuqları", qarın boşluğunda mayenin toplanması və sair isə yalnız xəstəliyin inkişaf etmiş mərhələsində üzə çıxır. Bəzi məlumatlara görə, qaraciyərin xroniki xəstəlikləri olan şəxslərin 20-30 faizinin həkimə ilkin müraciəti qarın boşluğuna mayenin toplanması zamanı, yəni xəstəliyin axırıncı mərhələsində baş verir. Ona görə əhalinin bu xəstəliklər barəsində maarifləndirilməsinin böyük əhəmiyyəti var. Əgər bir şəxsdə yuxarıda sadaladığımız əlamətlər 20-30 gündən artıq davam edirsə, o, həkimə müraciət etməlidir. Bu zaman əlavə müayinələrlə xəstəlik aşkarlana bilər. Qaraciyərin xroniki xəstəliklərinin diaqnozu vaxtında qoyulmadıqda və vaxtında müalicə aparılmadıqda bu xəstəliklər müxtəlif ağırlaşmalara, o cümlədən həyat üçün kritik vəziyyətlərə səbəb olur.

***– Bu xəstəliklər insanların həyat keyfiyyətinə necə təsir göstərir? Onların fəaliyyətini məhdudlaşdırırmı?***

– Qaraciyər xəstəlikləri xroniki proqressivləşən (daim artmağa meyilli) gedişə malik olduğundan xəstələrin əmək qabiliyyətinin və həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Ümumiyyətlə, bu xəstəliklərin müalicəsi həm də çox böyük xərc tələb edir. Belə ki, bir nəfər virus mənşəli hepatit xəstəsinin müalicəsinə 15 min ABŞ dollarından artıq vəsait lazımdır.

***– Uşaqlarda qaraciyər xəstəliklərinin hansı formasına daha çox təsadüf edilir?***

– Böyüklərdə rast gələnən qaraciyər xəstəlikləri uşaqlarda da müşahidə olunur. Qan xəstəlikləri olan uşaqlarda qaraciyər xəstəliklərinə daha çox rast gəlinir və ağır gedişli ola bilir.

***– Hamiləlik zamanı viruslu hepatitlər nə dərəcədə təhlükəlidir? İnfeksiyanın anadan uşağa keçməsinin profilaktikası məqsədilə hansı tədbirlər görülməlidir?***

– Hamiləlik dövründə A, B, C hepatit virusları ilə yoluxma ümumi əhali arasında olan yoluxma səviyyəsindədir. Hepatit A virusu dölün inkişafına təsir etmir və anadan dölə keçmə təhlükəsi çox azdır. Bu virusa qarşı olan peyvənd və immunoqlobulin təhlükəsiz olduğuna görə hamilə qadınlara tövsiyə olunur. Hepatit B virusu yoluxmuş anadan vertikal mexanizm ilə dölə keçə bilər. Əgər ana hamiləliyin birinci 3 aylığında yoluxubsa, doğulan uşaqda virusa yoluxma riski 10 faiz təşkil edir. Ananın 3-cü aylığında yoluxması isə bu riski 80-90 faizə qədər qaldırır. Ona görə də hamilə qadınlarda hepatit B virusunun göstəriciləri müntəzəm şəkildə yoxlanılmalıdır. Əgər ananın qanında hepatit virus antigeni tapılırsa, yeni doğulan körpəyə hepatit B virusuna qarşı hiperimmun immunoqlobulin və B virusuna qarşı peyvənd (3 dozada) inyeksiya olunur. Ananın qanında antigen tapılmadıqda isə yeni doğulmuş uşağa ancaq peyvənd edilir. Hepatit C virusunun vertikal yolla dölə keçməsi ancaq ananın qanında virus göstəricisinin səviyyəsi yüksək olduğu zaman, yəni xroniki C hepatitinin kəskinləşmə dövründə baş verə bilər. Bu göstərici yüksək olduqda virusun dölə keçmə riski daha da artır. Bu zaman profilaktik tədbirlərin və immunoqlobulinlə müalicənin əhəmiyyəti yoxdur.

***– Deməli, hepatit bizdən çox da uzaq deyil. Qaraciyər xəstəliklərindən qorunmaq üçün insanlara nə məsləhət görərdiniz?***

– Bəli, hepatit sizin düşündüyünüzdən daha yaxındır. Ondan uzaq durmaq üçün insanlar sağlam həyat tərzi keçirməlidirlər: fiziki aktivliyə fikir verməli, qidada meyvə-tərəvəzə geniş yer ayırmalı, yüksəkkalorili qidaların (piyli, qızardılmış, qovurulmuş, şirin), spirtli içkilərin qəbulunu məhdudlaşdırmalıdırlar. Əhali düzgün qidalanma və gigiyena qaydaları ilə, virus hepatitlərinin qanla, digər yolla yoluxması, hamiləlik zamanı anadan uşağa ötürülməsi ilə bağlı maarifləndirilməlidir. Hepatit A və hepatit B viruslarına qarşı peyvənd etməklə bu xəstəliklərdən etibarlı qorunmaq mümkündür. Ölkəmizdə bu peyvəndlər var və uşaqlara uzun illərdir ki, dövlət hesabına pulsuz həyata keçirilir. Hepatit C virusuna qarşı peyvənd isə hələlik dünyada yoxdur. Hepatit B və hepatit C virusları ilə yoluxmuş xəstələrlə təmasda olanlar şəxsi gigiyena qaydalarına əməl etməli, xəstənin istifadə etdiyi kəsici alətlər (dırnaqtutan, qayçı, bıçaq), diş fırçası təcrid olunmalıdır. Qız uşaqlarının qulağına sırğa salınması üçün primitiv şəraitdə deşik açılması kimi adətlərə son qoyulmalıdır. Bir sözlə, hepatit B və hepatit C xəstəliklərinin uzunmüddətli olması, dərman preparatlarının orqanizmə toksiki təsiri, eyni zamanda psixoloji baxımdan çətinliyi nəzərə alınaraq hər bir insan bu viruslardan qorunmalıdır.

*Müsahibəni apardı:*

**Hüseyn ƏSGƏROV**

## Xocalı soyqırımına həsr olunmuş film nümayiş etdirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı Tədbirlər Planına uyğun olaraq Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində azərbaycanlıların soyqırımından bəhs edən "Qanla möhürlənmiş gün" adlı sənədli film nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları iştirak ediblər.

## Yoldaşlıq görüşü keçirilib



***Şərur Olimpiya-İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında karate-do üzrə Şərur və Kəngərli rayonlarının yeniyetmə qız və oğlanlarından ibarət komandaları arasında yoldaşlıq görüşü keçirilib.***

Şərur və Kəngərli Rayon Gənclər və İdman idarələri ilə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının birgə təşkil etdiyi görüşdə 60-dan çox karateçi mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən, oğlanların mübarizəsində 6-7 yaş qrupunda Həbib Əhmədov, 8-9 yaş qrupunda Hüseyn Vəliyev, 10-11 yaş qrupunda Məhəmməd Şıxəliyev və 12-13 yaş qrupunda Möhsün Möhsümov bütün rəqiblərinə qalib gələrək birinci olublar. Tatami üzərinə çıxan qızların mübarizəsində isə 10-11 yaş qrupunda Aminə Nağızadə rəqiblərini üstələməyi bacarıb. O, həlledici qarşılaşmada İnci Mehdiyevaya qalib gəlib. Şəkər Əhmədova və Ayşən Yusifova isə üçüncü olublar.

Qaliblərə təşkilatçıların diplomları təqdim olunub.

## Voleybol birinciliyi başa çatıb

Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Şərur rayon bölməsinin birgə təşkilatçılığı ilə məktəbli qızlar arasında voleybol üzrə birincilik keçirilib. Birincilikdə 10 komandanın tərkibində 120 məktəbli qız mübarizə aparıb.

Beynəlxalq voleybol qaydalarına uyğun olaraq keçirilən birincilikdə qalib adını Yengicə kənd tam orta məktəbinin komandası qazanıb. Onlar həlledici qarşılaşmada Kürkənd tam orta məktəbinin komandasını məğlub ediblər. Birincilikdə üçüncü pillədə Oğlanqala kənd tam orta məktəbinin komandası qərarlaşıb.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

## Hərbi qulluqçular arasında daşqaldırma üzrə birincilik təşkil olunub

***Əlahiddə Ümumqoşun Ordusunda hərbi qulluqçular arasında keçirilən daşqaldırma üzrə birinciliyin qalibləri mükafatlandırılıb.***

Yarış başlanmazdan əvvəl Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman rəisi, mayor Vahid Məmmədov yarışın qaydaları haqqında iştirakçılara məlumat verib.

Sonra birinciliyə start verilib.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında 6 çəki dərəcəsində təşkil olunan birincilikdə 100-ə yaxın hərbi qulluqçu iştirak edib.

Qaliblər həm komanda, həm də fərdi hesabda müəyyənləşib. Belə ki, 60 kiloqram çəki dərəcəsində əsgər Ədalət Vəliyev, 65 kiloqram çəki dərəcəsində gizir Rəşad Salahlı, 70 kiloqram çəki dərəcəsində əsgər Həsən Hüseynzadə, 80 kiloqram çəki dərəcəsində kapitan Elimdar Eminov, 90 kiloqram çəki dərəcəsində leytenant Üzeyir Novruzov və 90 kiloqramdan yuxarı çəki dərəcəsində kapitan Orxan Məlikov birinciliyin qalibi olublar.

İlk üçlüyə düşməyi bacaran qalib komandalara diplom və kubok, fərdi hesabda qalib gələn hərbi qulluqçulara isə fəxri fərmanlar təqdim olunub.

## Şahmat müəllimləri üçün seminar

***Məktəblərdə şahmat fənnini tədris edən müəllimlər üçün seminar-məşğələ keçirilib.***



Naxçıvan Şahmat Mərkəzində keçirilən seminar Bakı şəhərindən dəvət olunmuş beynəlxalq dərəcəli qrossmeyster Azər Mirzəyev tərəfindən aparılıb. Azər Mirzəyev şahmatın yaranma tarixi, bu idman növünün ölkəmizdəki inkişafı və uşaqlar arasında təbliği yönündə görülən işlər barədə məlumat verib. Bununla yanaşı, beynəlxalq dərəcəli qrossmeyster şahmat taxtasında məşğələ iştirakçılarına oyunun sirlərini öyrədib. Şahmat Federasiyasından aldığımız məlumata görə, seminar-məşğələlər 7 gün davam edəcək.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə Şahmat Federasiyasının birgə təşkil etdiyi seminar yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilən müşavirədə verilmiş tapşırıqlara əsasən reallaşıb.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 142